**AZƏRBAYCAN XALQ PARLAMENTİ**

**AzXP-nin 43-cü İclası**

**Protokol № 43**

Tarix: 06 dekabr 2025-ci il
Başlanma vaxtı: 20:00 (Bakı vaxtı)
İclasın müddəti: 2 saat (faktiki 2 saat 14 dəqiqə)
İcra yeri: Onlayn
Sədr: Cavanşir Xanlarov
Katib: Kəmalə Mehtiyeva

İclas Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edildi.

Sədr Rəyasət Heyəti tərəfindən hazırlanmış gündəliyi səsverməyə çıxardı. Bir neçə millət vəkili tərəfindən İntizam Komissiyasının tərkibindən istefalar və Komissiyanın yeni tərkibinin seçilməsi məsələsinin gündəliyə əlavə olunması təklif edildi.

Təklif qəbul olundu və dəyişiklik edilmiş gündəlik təsdiq edildi.

**GÜNDƏLİK**

1. Ölkədə siyasi represiyalar, müxalifət lideri Əli Kərimlinin həbsi və onun nəticələri.
2. İstefaların qəbulu və yeni İntizam Komissiyasının formalaşdırılması.

3. AzXP-də növbəti Parlament seçkilərinin elan olunması (Seçki Komissiyasının rəyi və qərarı).
4. Cari məsələlərin müzakirəsi.

**1-ci məsələ:**

Ölkədə siyasi represiyalar, müxalifət lideri Əli Kərimlinin həbsi və onun fəsadları (Məruzəçi: millət vəkili Aydın Ələkbərli)

Məruzə dinlənildikdən sonra millət vəkili Oqtay İskəndərli AzXP adından hazırlanmış və beynəlxalq təşkilatlara ünvanlanmış müraciəti səsləndirdi. Daha sonra 5 millət vəkili çıxış edərək məsələyə münasibət bildirdilər.

**2-ci məsələ:**

İntizam Komissiyası üzvlərinin istefası və Komissiyanın yeni tərkibinin seçilməsi

Millət vəkilləri T. Eminbəyli, T. Səfərsoy və E. Həmədov İntizam Komissiyasının tərkibindən istefa verdiklərini bəyan etdilər. İstefalar qəbul edildi.

Millət vəkilləri tərəfindən Komissiyanın yeni tərkibi üçün 6 nəfərdən ibarət namizədlər siyahısı təqdim edildi və səsvermə keçirildi.

Səsvermənin nəticələri:

1. S. Məhəmmədhüseynov – 30 lehinə, 2 əleyhinə
2. T. Məmmədov – 30 lehinə, 2 əleyhinə
3. T. Ələkbərsoy – 30 lehinə, əleyhinə yoxdur
4. T. Korkmaz – 29 lehinə, əleyhinə yoxdur
5. T. Verdiyev – 28 lehinə, 2 əleyhinə
6. Ə. Bədəlov – 29 lehinə, 1 əleyhinə

İntizam Komissiyasının seçilmiş yeni tərkibi:

- S. Məhəmmədhüseynov
- T. Məmmədov
- T. Ələkbərsoy
- T. Korkmaz
- Ə. Bədəlov

**3-cü məsələ:**

AzXP-də Parlamentə növbəti seçkilərin elan olunması

(Seçki Komissiyasının rəyi və qərarı)

Komissiyanın sədri Rasim Əlizadə çıxış edərək Seçki Komissiyasının qərarını təqdim etdi.

AzXP Seçki Komissiyasının

Xalq Parlamentinə 2-ci Çağırış seçkilərin keçirilməsi barədə

**QƏRARI**

Əsas:

- AzXP Nizamnaməsinin 5.12-ci bəndi,
- AzXP-nin 08.11.2025-ci il tarixli Qərarı,
- SK-nın 06.12.2025-ci il tarixli 52 saylı Protokolu.

Qərar olunur:

1. AzXP-nin 2-ci Çağırış Parlament seçkilərinin tarixi 15 mart 2026-cı il, Bakı vaxtı ilə 22:00 təyin edilsin.

2. Seçki kampaniyası aşağıdakı qaydalarla təşkil edilsin:

2.1. Namizədlərin qeydiyyatı: 10.12.2025, saat 00:00 – 03.03.2026, saat 22:00

2.2. Təbliğat-təşviqat kampaniyası: 16.12.2025 – 07.03.2026

2.3. “Sükut günü” - 08.03.2026

2.4. Səsvermə müddəti: 09.03.2026, saat 00:00 – 15.03.2026, saat 22:00

Seçki Komissiyasının qərarı təqdim edildi və Parlamentin 2-ci Çağırış seçkilərə hazır olduğu elan olundu.

**4-cü məsələ:**

Cari məsələlər barədə çıxışlar.

11 millət vəkili ölkədəki ictimai-siyasi vəziyyət və gözləntilər barədə çıxış etdilər.

Gündəlikdə edilən dəyişikliklər nəzərə alınmaqla iclas 2 saat 14 dəqiqə davam etdi.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra iclas bağlandı.

Sədr: Cavanşir Xanlarov

Katib: Kəmalə Mehtiyeva (SK-nın üzvü)